# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq

## *Səhiyyə Təşkilatları Assosiasiyasının rəhbəri Uzodinma ADİRİEJE:*
## "Ətraf mühitin ziyan çəkməməsi üçün dünyada sülh olmalıdır"

"Neft quyularının qazılması müstəmləkəçiliklə gələn texnologiyadır, lakin ondan sonra yalnız fəlakətlər, viran edilmiş icmalar, dağıdılmış torpaqlar, yoxsul kənd təsərrüfatı gəncləri, aclıq və yoxsulluq qalıb. İcmalar resurslar baxımından çətinlik çəkir. İndi nüvə stansiyaları ilə bağlı məsələ onların deqradasiyasıdır".



AZƏRTAC xəbər verir ki, bu sözləri Afrikanın Səhiyyə Təşkilatları Assosiasiyasının rəhbəri Uzodinma Adirieje deyib.

O, nüvə strukturlarının ətraf mühitə verdiyi zərərlərdən bəhs edib: "Bilirik ki, nüvə strukturları asanlıqla parçalana bilməz. Bu səbəbdən ətraf mühitə daimi ziyan vurur, torpağı, havanı korlayır. Deməli, bu, çox təhlükəli tendensiyadır. Bombalar atılanda ətraf mühit ziyan çəkir, insanlar ölür, qan tökülür, infrastruktur dağılır. Bu, baş verməməlidir. Ona görə də dünyada sülh olmalıdır. İstəyirəm elə bir dünya olsun ki, texnologiya insanların inkişaf etməsinə, sağ qalmasına, çiçəklənməsinə və xoşbəxt olmasına imkan verən əşyalar istehsal etmək üçün istifadə olunsun. Kütləvi qırğın xarakteri daşıyan resurs və texnologiyanın əvəzinə, insan rifahının kütləvi istehsalı xarakteristikalarına malik olan texnologiyanı tətbiq etməliyik".

## "COP29 bütün dünyanı bir araya gətirərək iqlim problemlərinin müzakirəsinə meydan açıb"

"COP29 bütün dünyanı bir araya gətirərək iqlim problemlərinin müzakirəsinə meydan açıb. Bu, olduqca önəmli hadisədir. Yeri gəlmişkən, Azərbaycanın yüksək təşkilatçılığı da məni heyran etdi".



Bu sözləri COP29-da iştirak etmək üçün ölkəmizə gələn Somalidən olan Abdirizak Adam Gedi bildirib.

O, iqlim maliyyə problemlərinə toxunaraq bunun qlobal səviyyədə ciddi məsələ olduğunu vurğulayıb: "İqlim sahəsində bir çox ölkə töhfə versə də, maliyyə dəstəyi göstərən böyük dövlətlər vədlərini yerinə yetirmirlər. Məsələn, COP28-də az inkişaf etmiş ölkələrə dəstək üçün verilmiş vədlər hələ də reallaşmayıb. Dünya miqyasında baş verən iqtisadi böhranlar, siyasi qeyri-sabitlik və digər problemlər bu öhdəliklərin icrasını əngəlləyir".

"Daşqınlar, quraqlıqlar və digər iqlim problemləri bizə ciddi şəkildə təsir göstərir. Bu problemlər həm insanların dolanışığını pisləşdirir, həm də infrastrukturu məhv edir. Biz Somali olaraq İtki və Zərərə Cavab Fondu mexanizminin tətbiqini alqışlayır və böyük ölkələrin bizə bu fəlakətlərin yaratdığı problemləri aradan qaldırmaqda dəstək olmasını tələb edirik", - deyə o, fikrini tamamlayıb.

## *Elaine Bvalya KAFVİMBİ:*
## "Azərbaycan COP29-a yüksək səviyyədə evsahibliyi edir"

"COP29 konfransında iqlim maliyyəsi diqqət mərkəzindədir. İstərdim ki, biz inkişaf etməkdə olan ölkələrdə təsirlərin azaldılması tədbirlərinin icrasında irəliləyişə nail olaq və bu sahədə əməkdaşlıq daha da gücləndirilsin".



Bu sözləri Zambiyanın Qlobal Yaşıl İnkişaf İnstitutunun SPAR6C Proqramı üzrə milli koordinatoru Elaine Bvalya Kafvimbi deyib. O, həmçinin vurğulayıb ki, Azərbaycan COP29-a yüksək səviyyədə evsahibliyi edir: "Hər şey çox yaxşı təşkil olunub. İstər qalacağımız yer, istərsə də tədbirin keçirildiyi məkan, hər şey əladır".

## *Civo ABDULAY:*
## "Qlobal Şimal maliyyə öhdəliklərini lazımi dərəcədə yerinə yetirmir"

"Qlobal Şimal Qlobal Cənub qarşısında iqlim maliyyələşdirilməsi ilə bağlı öhdəliklərini lazımi dərəcədə yerinə yetirmir".



Bunu Syerra-Leonenin ətraf mühit naziri Civo Abdulay COP29-un kuluarlarında "Report"un sualını cavablandırarkən bildirib.

"Əgər Qlobal Şimal iqlim maliyyələşdirilməsi ilə bağlı öhdəliklərini yerinə yetirsəydi, COP29-a gəlməyimizin mənası olmazdı", - o qeyd edib.

Nazirin sözlərinə görə, inkişaf etmiş ölkələrin iqlim maliyyələşdirməsi ilə bağlı öhdəliklərini yerinə yetirməməsi inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına fəlakətli dərəcədə mənfi təsir göstərir.

"Ümid edirik ki, bu məsələni həll edə biləcəyik, çünki əks halda bu, ölkələrimiz, iqtisadiyyatımız və ekosistemlərimiz üçün böyük itkilərə səbəb olacaq", - C.Abdulay vurğulayıb.

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.14.